AZƏRBAYCAN RESPUBLİKASI

*Əlyazması hüququnda*

# SƏFƏVİLƏR DÖVLƏTİNİN ƏHALİSİ
**(tarixi-demoqrafik tədqiqat)**

İxtisas: **5503.02 – Vətən tarixi**

Elm sahəsi: **Tarix**

İddiaçı: **Elnur Rasim oğlu Nəciyev**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2021**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın tarixi demoqrafiyası" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** tarix elmləri doktoru, professor
**Kərim Kərəm oğlu Şükürov**

**Rəsmi opponentlər:** tarix elmləri doktoru, dosent
**Mehman Sirac oğlu Süleymanov**

tarix üzrə fəlsəfə doktoru, dosent
**Mübariz Zahid oğlu Ağalarov**

tarix üzrə fəlsəfə doktoru, dosent
**İlhami Nizam oğlu Əliyev**

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 saylı Dissertasiya şurası

Dissertasiya şurasının sədr müavini: tarix elmləri doktoru, professor
**Şahin Fazil oğlu Fərzəliyev**

Dissertasiya şurasının Elmi katibi: tarix üzrə fəlsəfə doktoru, dosent
**İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: tarix elmləri doktoru, professor
**Mais İsrail oğlu Əmrahov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Xalqımızın dövlətçilik tarixinin ən şanlı səhifələrindən olan Səfəvi imperiyası təkcə Azərbaycanın, həmçinin bütövlükdə Cənubi Qafqazın deyil, eyni zamanda bütün Yaxın və Orta Şərqin dövlətçilik tarixində, beynəlxalq münasibətlərində, hərbi-siyasi həyatında mühüm rol oynamışdır.

Səfəvilər dövləti yarandığı gündən qısa müddət ərzində bütün Yaxın və Orta Şərqdə qüdrətli hərbi-siyasi amilə çevrilmişdi. Şah İsmayılın yaratdığı Azərbaycan dövlətçiliyi Azərbaycan türklərinin dünyagörüşünün təkamülünə, o cümlədən öz-özünü və etnosiyasi məkanın formalaşmasında rolunu yenidən qiymətləndirməyə kömək etmişdi. [1]

Səfəvilər dövlətinin əhalisinin öyrənilməsi günümüzün aktual məsələlərindəndir. Ən azından ona görə ki, bu gün etnik rəngarəngliyi ilə fərqlənən ən problemli məkanlardan biri olan Yaxın və Orta Şərq bir zamanlar Səfəvilər dövlətinin tərkib hissəsi olmuşdur. Son dövrlərdə Səfəvi dövlətinin tarixi ilə bağlı aparılan tədqiqatlar təsdiq edir ki, iki yüz ildən artıq Yaxın və Orta Şərqin hərbi-siyasi həyatında mühüm rol oynayan Səfəvi imperiyası əslində Qərb səyyahlarının məlumatlarındakı kimi Persiya* deyil, yerli qaynaqların qeyd etdiyi kimi "Dövlət-i Qızılbaşan", yəni Qızılbaşlar dövləti adlanmışdır. Süqutuna qədər Səfəvi imperiyasının əsasən türk-qızılbaş əyanlarının birliyinə söykənməsi, Azərbaycan ərazisində yerləşən əsas siyasi mərkəzin İsfahana köçürülməsindən sonra dövlətin hər hansı bir farslaşmaya məruz qalmaması mənbələrdə öz təsdiqini tapır. Bu faktı daha da möhkəmləndirmək mövzunun aktuallığını daha da artırır və dövlətin əhali tərkibinin öyrənilməsi ilə bir çox suallar öz-özlüyündə cavablandırılmış olur.

Orta əsrlərdə Səfəvilər dövlətində yaşayan türk mənşəli əhalinin öz kimliyini necə dərk etməsi, özünü necə adlandırması, keçmişini və

---

[1] Mehdiyev, R.Ə. Şah İsmayıl Səfəvi ali məramlı tarixi şəxsiyyət kimi // Azərbaycan. – 2012, 5 dekabr. – s. 3-6.

əcdadlarını necə yad etməsi, özünü digər xalq və etnik qrupların nümayəndələrindən hansı cəhətlərə görə fərqləndirməsi, Səfəvi və Osmanlı cəmiyyətində müxtəlif təbəqələr arasında "türk" və "türkman" terminlərinin nə dərəcədə işlənməsi və hansı məna daşıması kimi suallar Azərbaycan türk xalqının tarixini öyrənmək üçün mühüm əhəmiyyət kəsb edir.

Osmanlı imperiyasında olduğu kimi Səfəvi imperiyasınında da ictimai-siyasi qurumlar və rəsmi ideologiya, ilk növbədə dini prinsiplərə əsaslanırdı. Səfəvilər dövlətinin əhalisi əsasən müsəlmanlardan ibarət idi. Yerli əhalinin dili ilə vahid şəkildə "gavur" və "gəbr" kimi qeyd olun Səfəvilər dövlətinin qeyri müsəlman əhalisi – qriqoryan erməniləri və qriqoryanlaşan albanları "erməni milləti", xüsusi məhəllələrdə-jubaralarda yaşayan zərdüştilər "zərdüşti milləti", yəhudiləri isə "yəhudi milləti" olaraq rəsmi statusa malik ayrı-ayrı dini icmalar şəkildə təşkilatlanmışdılar. Qeyd edək ki, orta əsrlərdə "millət" sözü dini inanclara əsaslanan dini icma mənasını daşıyırdı. [2]

Mövzunun aktuallığını şərtləndirən amillərdən biri də Səfəvilər dövlətində ümumişlək dilə çevrilmiş Azərbaycan tayfalarının ana dili – türk dilidir. Bir sıra Şərq dövlətlərindən fərqli olaraq Səfəvilər dövlətində türk dilinin nüfuzu artmış, onun işlənmə dairəsi daha da genişlənmişdir. Bunu Nəsrulla Fəlsəfi də təsdiqləyərək yazır: *"Şirin fars dili Osmanlı imperiyasında və Hindistanda siyasət və ədəbiyyat dili olduğu bir dövrdə o (Şah İsmayıl Xətai - E.N.), türk dilini İran sarayının rəsmi dili etmişdi... vahid dövlət yaradan I Şah İsmayılın İranın milli və siyasi birliyini bərpa etməyi qarşısına qoymaması şübhəsizdir".*[3]

Mövzunun aktuallığını şərtləndirən amillərdən biri də Səfəvilər dövlətinin əhalisinin yayıldığı ərazi ilə bugünkü İran ərazisində yaşayan əhalinin yayıldığı ərazidə mövcud paralellər və

---

[2] Mustafayev, Ş.M. Səlcuqilərdən Osmanlılara: XI-XV yüzilliklərdə Anadolunun türk mühitində etnosiyasi proseslər / Ş.M.Mustafayev. – Bakı: Elm, – 2010. – s. 2-3

[3] Fəlsəfi, N. Zendegani Şah Abbas-e əvvəl (celd-e əvvəl) / N.Fəlsəfi. – Tehran: İntişarat-e elmi, . – 1347. – s. he, ze, ye

dəyişikliklərdir. Teymur Pirhaşimi belə yazır: *“Bu gün bütün dünyada bir nəfər tapılmaz ki, Arazın şimal və cənubunda sakin əhalinin dil və soykökünün bir olmasını inkar etmiş olsun”.*[4] Təəssüf ki, 1925-ci ildən sonra Azərbaycanın bütövlüyünü parçalamaq, eyni dildə danışan, eyni mədəniyyətə malik olan və ölkə əhalisinin az qala yarısını təşkil edən bir bölgəni parçalayıb onun nüfuzunu azaltmaq üçün Səfəvilər dövründə Azərbaycan bəylərbəyliyi kimi tanınan inzibati ərazi vahidinin yerində Həmədan, Qəzvin, Zəncan, Ərdəbil ostanları yaradıldı. Azərbaycanın güneyi hal-hazırda İranın coğrafi bölgüsündə - Şərqi Azərbaycan, Qərbi Azərbaycan, Həmədan, Qəzvin, Zəncan, Ərdəbil ostanlarından ibarətdir. İranda əhali yerdəyişmələri hesabına Azərbaycan türklərinin sıx şəkildə yaşayış nizamının pozulmasına çalışılması mövzunun öyrənilməsini daha da zəruri edir.

Qeyd edək ki, Vətən tarixşünaslığında Səfəvilər dövlətinin əhali tarixi ilə bağlı məsələlər dərindən araşdırılmamış, yalnız problemlə bağlı ümumi məlumat verməklə kifayətlənilmişdir. Bu baxımdan, Səfəvilər dövlətinin əhali məsələsinin tədqiqinə təşəbbüs göstərilməsi mövzunun aktuallığını daha da artırır və gələcək tədqiqatlar üçün bir yol müəyyənləşdirmiş olur.

Səfəvilər dövlətinin əhalisinin tarixi-demoqrafik tədqiqi nəinki Vətən tarixşünaslığında, bütövlükdə xarici tarixşünaslıqda da indiyə kimi ayrıca tədqiqat obyekti olmamışdır. Yalnız problemin ayrı-ayrı məsələləri bəzi ümumiləşdirilmiş əsərlərdə, yaxud da Səfəvilər dövlətinin ayrı-ayrı bölgələrinə dair Osmanlı işğalları zamanı tərtib edilmiş təhrir dəftərləri əsasında tədqiq edilmişdir. Bu tədqiqatlar da daxil olmaqla problemin tarixşünaslığını aşağıdakı kimi sistemləşdirmək olar:

– Ümumiləşdirilmiş əsərlər;

[4] Pirhaşimi, T. Arran vilayəti əst əz Azərbaycan // Varlıq, – 1985, № 3-4, – s. 54; Mədətli, E.Y. Azərbaycan həqiqətləri İran tarixşünaslığında / E.Y.Mədətli. – Bakı: Təhsil, – 2011. – s. 18

- Ayrı-ayrı tayfalar, oymaqlar və obalarla bağlı yazılmış tədqiqat əsərləri;
- Osmanlı və Azərbaycan əhalisi ilə bağlı aparılan tarixi-demoqrafik tədqiqatlar;
- Ayrı-ayrı inzibati vahidlərlə bağlı aparılmış tədqiqatlar;
- Xəstəliklər və təbii fəlakətlər, xüsusilə də zəlzələlərlə bağlı aparılmış tədqiqatlar və tərtib edilmiş kataloqlar;

Ümumiləşdirilmiş əsərlər deyildikdə həm İran və Azərbaycan tarixinə dair yazılmış əsərləri, həm də Səfəvilər dövləti ilə bağlı ümumi səpkidə yazılmış əsərləri nəzərdə tuturuq. İran tarixi ilə bağlı Kembric Universitetinin nəşri olan 7 cildliyin 6-cı cildi, Con Malkolm, Kaveh Fərrux, Vilyam Haas, Vasili Bartold [5] və başqalarının İran tarixi ilə bağlı əsərləri, o cümlədən də çoxcildlik Azərbaycan tarixinin 3-cü cildi [6] problemlə bağlı bəzi məsələlərə (əhali sayı, etnik tərkib, təbii fəlakətlər, xəstəliklər, sürgünlər, köçürülmələr) dair məlumatları özündə ehtiva etsə də, problemin kompleks tədqiqi baxımdan ümumi təəssürat yaratmır. Lakin onlarla müqayisədə Səfəvi dövlətinin tarixi ilə bağlı həm Azərbaycan tədqi-

---

[5] The Cambridge History of Iran: [In 7 volumes] / edited by Peter Jackson Lecturer in History, University of Keele and the late Laurence Lockhart. – Cambridge: University press, – vol. 6: The Timurid and Safavid periods – 2006. – 1156 p.; Malcolm, J. The History of Persia from the most early period to the present time: containing an account of the religion, government, usages and character of the inhabitants of that kingdom: [in two volumes] / J.Malcolm. – London: John Murray, Albemaarle-street, – Vol. 1. – 1829. – 555 p.; Malcolm, J. The History of Persia from the most early period to the present time: containing an account of the religion, government, usages and character of the inhabitants of that kingdom: [in two volumes] / J.Malcolm. – London: John Murray, Albemaarle-street, – Vol. 2. – 1829. – 595 p.; Farrokh, K. Iran at war, 1500-1988 / K.Farrokh. – Oxford: Osprey, – 2011. – 481 p.; Haas, W.S. Iran / W.S.Haas. – New York: Columbia University press, – 1946. – 273 p.; Бартольд, В.В. Сочинения: [в 9 томах]. – Москва: Наука, – Т. 7: Работы по исторической географии и истории Ирана. – 1974. – 667 с.

[6] Azərbaycan tarixi: [Yeddi cilddə]. / Məs. red. O.Əfəndiyev – Bakı: Elm, – III cild (XIII-XVIII əsrlər). – 2007. – 592 s.

qatçılarının, [7] həm də xarici tədqiqatçıların əsərləri [8] Səfəvilər dövlətinin əhali tarixi ilə bağlı daha sistemli və dəyərli məlumatları özündə ehtiva edir.

İstər Azərbaycan, istərsə də Türkiyə tarixşünaslığı ayrı-ayrı tayfalar, oymaqlar və obalarla bağlı yazılmış tədqiqat əsərləri ilə zəngindir. Xüsusilə də Türkiyə tarixşünaslığında Faruk Sümerin tədqiqatları [9] Səfəvilər dövlətinin etnik tərkibi ilə bağlı tədqiqatçı üçün tam təəssürat yaradır. Ondan savayı, Sübhan Saatçi, [10]Tufan Gündüz, [11] Cevdet Türkay [12] və Hüseyn Arslanın [13] Osmanlı təhrir

---

[7] Bayramlı, Z.H. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu / Z.H.Bayramlı. – Bakı: Avropa, – 2015. – 348 s.; Dadaşova, R.İ. Səfəvilərin son dövrü (ingilisdilli tarixşünaslıqda) / R.İ.Dadaşova. – Bakı: Nurlan, – 2003. – 440 s.; Əfəndiyev, O.Ə. Azərbaycan Səfəvilər dövləti. – Bakı: Şərq-Qərb, – 2007. – 344 s+8 s.; Həsənəliyev, Z.M. Səfəvi dövləti XVII əsrdə (Avropa səyyahlarının məlumaları əsasında): / tarix üzrə elmlər doktoru dissertasiyası / – Bakı, 2005. – 294 s. və b.

[8] Bilge, R. 1514 Yavuz Selim ve Şah İsmail. Türkler, Türkmenler ve Farslar / R.Bilge. – İstanbul: Giza yayınları, – 2011. – 438 s.; Douglas, E.S. Ateşli silahlar çağında İslam İmparatorlukları: Osmanlılar, Safeviler, Babürlüler / E.S.Douglas. – İstanbul: Ufuk yayınları, – 2013. – 352 s.; Gündüz, T. Son Kızılbaş Şah İsmail / T.Gündüz. – İstanbul: Yeditepe, – 2014. – 175 s.; Kaplan, D. Safeviler ve Kızılbaşlık. Aleviliğin tarihsel temelleri / D.Kaplan. – Ankara: Gece kitaplığı, – 2015. – 189 s.; Küçükkalfa, A. Şahlar-Sufiler-Türkmenler / A.Küçükkalfa. – İstanbul: Matsis Matbaa Hizmetleri, – 2011. – 320 s. və b.

[9] Sümer, F. Avşar // İstanbul: Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, – c. 4. – 1991, – s.160-164; Sümer, F. Bayat // İstanbul: Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, – c. 5. – 1992, – s.218-219; Sümer, F. Bayatlar // İstanbul: İstanbul Üniversitesi Edebiyat Fakültesi Türk dili ve Edebiyatı Dergisi, – 1952. 4/4, – s.373-398; Sümer, F. Döğerlere dair // İstanbul: Türkiyat Mecmuası, – 1953, – s.139-158 və b.

[10] Saatçi, S. İrak türkmen boyları. Oymaklar ve yerleşme bölgeleri / S.Saatçi. – İstanbul: Ötüken, 2015. – 248 s.

[11] Gündüz, T. Anadolu'da Türkmen Aşiretleri. Bozulus türkmenleri 1540-1640 / T.Gündüz. – İstanbul: Yeditepe, – 2015. – 206 s.

[12] Türkay, C. Osmanlı imparatorluğun'da Oymak Aşiret ve Cemaatlar / C.Türkay. İstanbul: İşaret Yayınları, – 2012. – 832 s.

[13] Arslan, A. Osmanlılar'da Coğrafi Terim Olarak "Acem" Kelimesinin Manası ve Osmanlı - Türkistan Bağlantısındaki Önemi (XV-XVIII. Yüzyıllar) // Ankara:

dəftərlərinə istinadən türk tayfaları ilə bağlı apardıqları tədqiqatlar son dərəcə dəyərlidir və Səfəvilər dövlətinin yaranmasında iştirak edən türk-qızılbaş tayfaları ilə bağlı dolğun məlumatlar əldə etməyə imkan verir. Vətən tarixşünaslığında isə bu istiqamətdə yazılan əsərlər içərisində Ənvər Çingizoğlunun tədqiqatları [14] xüsusilə fərqlənir.

Osmanlı əhalisi ilə bağlı aparılan tarixi-demoqrafik tədqiqatlardan isə türkiyəli iqtisad tarixçisi Ömər Lütfi Barkanın bu istiqamətdə yazdığı əsərlər,[15] yerli tarixşünaslıqda isə "Azərbaycan əhalisi: öyrənilməsi tarixi və qaynaqları"[16] mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş professor Kərim Şükürovun tədqiqat işi əsas götürülmüşdür. Bu tədqiqatlarda istər problemin nəzəri əsaslarının işlənməsi, istərsə də əhali sayı ilə bağlı hesablama qaydalarının müəyyən edilməsi yolları daha aydın şəkildə öz əksini tapmışdır.

Son dərəcə geniş ərazini əhatə edən Səfəvilər imperiyasının ayrı-ayrı bölgələri ilə bağlı istər yerli, istərsə də xarici tədqiqatçıların yazdıqları əsərlər ayrı-ayrı şəhərlərin [17], bəylərbəyliklərin [18], o

---

Ankara Üniversitesi Osmanlı Tarihi Araştırma ve Uygulama Merkezi Dergisi, – 1997. №8, – s. 83-87.

[14] Çingizoğlu, Ə., Avşar, A. Avşarlar / Ə.Çingizoğlu, A.Avşar. – Bakı: Şərq-Qərb nəşriyyatı, – 2008. – 336 s.+32 s. ; Çingizoğlu, Ə. Cavanşir-Dizaq mahalı / Ə.Çingizoğlu. – Bakı: Mütərcim, – 2012. – 216 s.; Çingizoğlu, Ə. Ərdəbil xanlığı / Ə.Çingizoğlu. – Bakı: Mütərcim, – 2014. – 260 s. və b.

[15] Koç, Y. Ömer Lütfi Barkan'ın Tarihsel Demografi Çalışmalarına Katkısı ve Klasik Dönem Osmanlı Nüfus Tarihinin Sorunları // Ankara: Bilig: Türk Dünyası Sosyal Bilimler Dergisi, – 2013. Sayı 65, – s. 177-202

[16] Şükürov, K.K. Azərbaycan əhalisi: Öyrənilməsi tarixi və qaynaqları (qədim zamanlardan müasir dövrədək): / tarix üzrə elmlər doktoru dissertasiyası/ – Bakı, 2005. – 578 s. Biblioqr.: s.334-578.

[17] Aşurbəyli, S.B. Bakı şəhərinin tarixi / S.B.Aşurbəyli. – Bakı: Avrasiya press, – 2006. – 416 s.; Muradov, V. Orta əsr Azərbaycan şəhərləri / V.Muradov. – Bakı: Maarif, – 1983. – 157 s.; Onullahi, S.M. XIII-XVII əsrlərdə Təbriz şəhəri (sosial-iqtisadi tarixi) / S.M.Onullahi. – Bakı: Elm, – 1982. – 280 s.; Гейдаров, М.Х. Города и городское ремесло Азербайджана XIII-XVII веков. Ремесло и ремесленные центры / М.Х.Гейдаров. – Баку: Элм, – 1982. – 283 с. və b.

cümlədən də Azərbaycanın ayrı-ayrı bölgələrinin [19] əhali tarixi ilə bağlı məlumatların əldə edilməsi baxımdan xüsusi maraq doğurur.

Səfəvi dövlətinin ərazisində baş verən kütləvi xəstəliklər və təbii fəlakətlər, xüsusilə də zəlzələlərlə bağlı aparılmış tədqiqatlar və tərtib edilmiş kataloqlar əsasən xarici tədqiqatlardan ibarətdir. Zəlzələlərlə bağlı Manuel Berberianın tədqiqatları [20] və zəlzələ kataloqları [21] bu təbii fəlakətin əhali sayına təsirini öyrənmək baxımdan son dərəcə dəyərlidir və problemin tədqiqində tam təsəvvür yaradır. Osmanlı imperiyasında baş verən xəstəliklərə dair Nükhət Varlık, [22] Səfəvilər dövlətində təbii fəlakət və xəstəliklərlə

---

[18] Baxışov, V.B. Çuxur-Səd bəylərbəyiliyinin hüdudları və Osmanlı işğalı dövründə inzibati bölgüsü haqqında // – Bakı: Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, – 2008. № 2, – s. 182-186.; Aydoğmuşoğlu, C. Tarihte Tebriz: / Yüksek lisanz tezi / – Ankara, 2007. – 133 s.; İvecan, R. Revan livası yerleşim ve nüfus yapısı (1724-1730) // İstanbul: Tarih dergisi, – 2010. Sayı 50 (2009/2), – s.121-148 və b.

[19] Qarabağlı, A. Qarabağ, onun qədim tayfaları və toponimləri / A.Qarabağlı. – Bakı: Mütərcim, – 2008. – 480 s.; Məmmədli, M.Ş. Azərbaycan ədəbiyyatının Borçalı qolu (1920-ci ilə qədər) / M.Ş.Məmmədli. – Tbilisi: Kolori, – 2003. – 363 s.; Məmmədli, M.Ş. Ədəbi Borçalı. Bədii ədəbiyyatda Borçalı mövzusu (1920-ci ilə qədər) / M.Ş.Məmmədli. – Bakı: Borçalı NPM, – 2002. – 94 s.

[20] Berberian, M. Natural hazards and the first earthquake catalogue of Iran / M.Berberian. – Tehran: IIEES, – Volume 1: Historical hazards in Iran prior to 1990. – 1995. – 668 p.; Berberian, M. The Historical Record of Earthquakes in Persia. Encyclopedia Iranica, VII (F.6). – Drugs-Ebn al-Atir, USA, California: Mazda Publishers, Costa Mesa, – 1996, – p.635-640

[21] Мушкетова, И., Орлова, Л. Каталог землетрясений Российской империи / И.Мушкетова, Л.Орлова. – СПБ.: Типография императорской Академии Наук, – 1893. – 586 с.; Catalog of significant earthquakes 2150 B.C.-1991 A.D. İncluding Quantitative Casualties and Damage / P.K.Dunbar, P.A.Lockridge, L.S.Whiteside. – USA: U.S. Dept. of Commerce, National Oceanic and Atmospheric Administration, National Environmental Satellite, Data, and Information Service, National Geophysical Data Center, – 1992. – 329 p.

[22] Varlık, N. Disease and empire: A history of plague epidemics in the early modern Ottoman Empire (1453-1600): /A dissertation submitted to the faculty of the division of the humanities in candidacy for the degree of doctor of philosophy department of near eastern languages and civilizations/ – Chicago, Illinois, 2008. – 283 p.

bağlı Çarlz Melvill [23] kimi tədqiqatçıların əsərləri demoqrafik problemlərin əhali sayına təsirini öyrənmək baxımdan yalnız tədqiqat əsəri deyil, həm də ilkin qaynaq rolunu oynayır.

Səfəvilər dövlətinin əhalisinin tədqiqi işi mövzu ilə bağlı ən kiçik faktların belə əks olunduğu sənəd və materialların toplanılmasını, sistemləşdirilməsini və bunun əsasında problemin öyrənilməsini tələb edir. Qeyd etmək lazımdır ki, tədqiqat işinin xronoloji çərçivəsi Səfəvilər dövlətinin yaranmasından süqutunadək olan dövrü əhatə etdiyinə görə istinad etdiyimiz qaynaqları aşağıdakı kimi qruplaşdırmaq olar:

- Osmanlı sultanlarının Səfəvilər dövlətinin müxtəlif bölgələrinin işğalı zamanı tərtib etdikləri icmal, müfəssəl dəftərlər;
- Dərc olunmuş müxtəlif tarixi-diplomatik, qanunvericilik sənədləri;
- Dövrün müasiri olmuş Səfəvi və Osmanlı tarixçilərinin əsərləri;
- Avropalı, osmanlı və rus səyyahlarının əsərləri.

Səfəvilər dövləti Osmanlılarla müharibələr zamanı bəzi ərazilərini itirmiş və yalnız müəyyən müddətdən sonra həmin əraziləri geri qaytara bilmişdir. Osmanlı sultanları işğal olunmuş Azərbaycan ərazisində, eləcə də Səfəvi imperiyasının digər ərazilərində vergi yığılmasını asanlaşdırmaq üçün xüsusi təhrir və qeydiyyat işləri aparmış, onların nəticələrini tərtib etdikləri müfəssəl və icmal dəftərlərində əks etdirmişdilər. Tərtib edilən bu cür təhrir dəftərlərin müfəssəl və icmal olaraq adlandırılan növləri əslində biri geniş, biri xülasə formasında olmaqla eyni məlumatı əks etdirirdi. Bu mənbələrdə əhali etnik mənsubiyyətinə görə deyil, dini mənsubiyyətinə görə qeydə alınmışdır. Ancaq bu qeyd də bütün

[23] Ambraseys, N.N., Melville, C.P. A History of Persian Earthquakes / N.N.Ambraseys, C.P.Melville. – Cambridge: Cambridge University Press, – 2005. – 240 p. və b.

yaşayış məntəqələri üçün deyil, müsəlman və xristian əhalinin birgə yaşadıqları yerlər üçün edilmişdir.

Səfəvilər dövlətinin bütövlükdə əhali tarixinin öyrənilməsi üçün mühüm əhəmiyyət kəsb edən bu mənbələrin hamısından deyil, yalnız bir qismindən yararlanmışıq. Tədqiqat zamanı da Osmanlı dəftərlərinin orijinalına deyil, tərcümə edilərək tədqiqata cəlb edilən nəşrlərinə istinad etmişik [24].

Tədqiqatın gedişində müraciət edilən mənbələrin ikinci qrupunu dərc olunmuş müxtəlif tarixi-diplomatik, qanunvericilik sənədləri təşkil edirdi. Xüsusilə də qızılbaşların edam və sürgünləri ilə bağlı Osmanlı sultanlarının fərmanları, [25] qızılbaşlarlarla bağlı Osmanlı sənədləri məcmusu, [26] farsdilli sənədlər toplusu [27] problemin tədqiqi baxımdan son dərəcə dəyərlidir.

Dövrün müasiri olmuş Səfəvi və Osmanlı tarixçilərinin əsərləri problemin öyrənilməsində mühüm əhəmiyyət kəsb edir. Həsən bəy Rumlu, İsgəndər bəy Münşi, Qazi Əhməd Qumi, Oruc bəy Bayat, Arakel Təbrizli, Zəkəriyyə Əylisli, Yesai Həsən Cəlalyan və başqa Səfəvi tarixçilərinin əsərləri[28] dövlətin ayrı-ayrı şəhər və vilayətləri

---

[24] Lori vilayətinin icmal dəftəri / elmi red. H.Məmmədov; ön söz, mətnin tərtibi, tərc. və qeydlərin müəl. Ş.Mustafayev. – Bakı: Nurlan, – 2004. – 87 s.; Kırzıoğlu, M.F. 1593 yılı Osmanlı Vilayet Tahrir Defterinde Anılan Gence-Karabağ Sancakları Ulus ve Oymakları // Ankara: A.Ü. Ed. Fak. Araştırma Dergisi, – 1979. A. Caferoğlu Özel Sayısı, – s. 199-222; Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri / Ön söz, tərcümə, qeyd və şərhlərin müəllifi H.Məmmədov (Qaramanlı). – Bakı: Şuşa nəşriyyatı, – 2000. – 576 s. və b.

[25] Canpolat, C. Osmanlı Belgelerinde aleviler hakkında idam ve sürgün fermanları / C.Canpolat. – İstanbul: Markiz yayınları, – 2012. – 192 s.

[26] Öz, B. Aleviler ile ilgili Osmanlı belgeleri / B. Öz. – İstanbul: Can yayınları, 2014. – 302 s.

[27] Nobuaki, K. Persian documents: Social history of Iran and Turan in the fifteenth to nineteenth centuries / K.Nobuaki. – London and New York: Taylor& Francis e-Library, – 2005. – 189 p.

[28] Rumlu, Hasan. Şah İsmail Tarihi (Ahsenü't Tevarih) / Çeviren C.Cevan. – Ankara: Ardıç yayınları, 2004. – 256 s.; A chronicle of the early Safawis being the Ahsanu't-tawarikh of Hasan-i-Rumlu: [In 2 volume]. (English Translation) / translated by C.N.Seddon, M.A., I.C.S. (Retired). – Gujarat: Oriental Institute

üzrə əhali sayı, Səfəvilər dövləti hüdudlarında baş verən təbii fəlakət və xəstəliklərin nəticələri barədə ilkin mənbə rolunu oynayır. Səfəvi müəlliflərindən Mirzə Səmianın “Təzkirət əl-müluk” [29] adlı əsəri isə Səfəvilər dövlətinin inzibati ərazi bölgüsü və əhali yerləşməsi ilə bağlı sistemli məlumatlar əldə etməyə imkan yaradır. Osmanlı tarixçilərindən isə İdris Bitlisi, Şərəf xan Bitlisi, Cəlalzadə Mustafa [30] və başqalarının əsərləri Səfəvi-Osmanlı müharibələri vaxtı Osmanlı qoşunları tərəfindən sürgün, qətl və qarətə məruz qalmış əhali, bəzi Səfəvi ərazilərində əhalinin etnik tərkibi ilə bağlı dolğun məlumatlar verir.

Səfəvilər dövlətinin istər siyasi, istərsə də ictimai-iqtisadi həyatı osmanlı, rus, avropalı səyyah, tacir, missionerlərinin də diqqətini cəlb etmiş, onlar öz gündəliklərində, hesabatlarında bu məsələlər haqqında geniş məlumatlar vermişdilər. Bu mənbələrin hər biri üçün ən ziddiyyətli məqam verdikləri məlumatları daha çox təhlil etmədən həqiqət kimi qəbul edərək, yaxud da mühakiməni

---

Baroda, – vol. 2. – 1934. – XV+301 p.; İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi (Tarix-e aləmara-ye Abbasi). 2 kitabda. I kitab / Fars dilindən çevirən Ş.Fərzəliyev. – Bakı: Şərq-Qərb, – 2010. – 1144 s.; İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi (Tarix-e aləmara-ye Abbasi). 2 kitabda. II kitab / Fars dilindən çevirən Ş.Fərzəliyev. – Bakı: Şərq-Qərb, – 2014. – 1400 s. ; Məmmədova, Ş.K. “Xülasət ət-təvarix” Azərbaycan tarixinin mənbəyi kimi / Ş.K.Məmmədova. – Bakı: Elm, – 1991. – 120 s.; Россия и Европа глазами Орудж-Бека Баята – Дон Жуана Персидского / перевод с английского, введение у комментарии и указатели О. Эфендиева и А.Фарзалиева. – СПб: Издательство Санкт-Петербургского университета, – 2007. – 211 с. və b.

[29] Minorsky, V.F. Tadhkirat al-muluk. A manual of Safavid Administration (circa 1137/1725). Persian text in Facsimile (B.M. Or. 94-96) / V.F.Minorsky. – London: printed by W. Heffer & Sons, – 1943. – 360 p.

[30] İdris-i Bitlisi. Selim Şahname / haz. H.Kırlangıc. – Ankara: Kültür Bakanlığı Yayınları, – 2001. – 432 s.; Şerefhan Bitlisi. Şerefname: [2.ciltte] / Ş.Bitlisi, farsçadan çeviren A.Yegin. – İstanbul: Nubihar, – c.1. – 2014. – 487 s.; Şerefhan Bitlisi. Şerefname: [2.ciltte] / Ş.Bitlisi, farsçadan çeviren O.Aslanoğlu. – İstanbul: Nubihar, – c.2. – 2014. – 296 s.; Celalzade, M. Selim-name / Haz.: Prof. Dr. Ahmet Uğur-Ögrt. Gör. Dr. Mustafa Çuhadar. – İstanbul: Milli Eğitim Bakanlığı yayınları, – 1997. – 706 s. və b.

tədqiqatçının öhdəliyinə buraxaraq təqdim etmələri idi. Bu baxımdan bu mənbələrə istinad edərkən verdikləri məlumatlara tənqidi yanaşmaq lazımdır.

**Tədqiqatın obyekti və predmeti.** Səfəvilər dövlətinin əhalisi dissertasiya işinin əsas tədqiqat obyektidir. Tədqiqatın predmeti isə Səfəvilər dövlətinin əhalisinin tarixi demoqrafik baxımdan tədqiqidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işində qarşıya qoyulan başlıca məqsəd Səfəvilər dövlətinin əhalisi ilə bağlı müxtəlif mənbə və tədqiqatlardakı məlumatları toplamaq və müqayisəli təhlil metodundan istifadə edərək öyrənmək, əldə olunan nəticələri ümumiləşdirərək tarixi-demoqrafik istiqamətdə vahid problem kimi araşdırmaqdır. Bu məqsədə nail olmaq üçün qarşıya qoyulan vəzifələr aşağıdakılardır:

- Səfəvilər imperiyasının ərazisinin hüdudlarını və inzibati-ərazi bölgüsünü aydınlaşdırmaq, baş verən dəyişikliklərin səbəblərini öyrənilmək;
- İmperiyanın ərazisində əhalinin yerləşməsinə təsir göstərən amilləri aydınlaşdırmaq və əhalinin say dinamikasını müəyyənləşdirmək;
- Əhalinin etno-demoqrafik vəziyyətində baş verən dəyişikliklərin səbəblərinə aydınlıq gətirmək;
- Dövlətin idarə edilməsində türk-Qızılbaş tayfalarının yeri və rolunu aydınlaşdırmaq;
- Əhalinin dini və sosial tərkibini öyrənmək;
- Əhalinin demoqrafik problemlərinin səbəblərinə (doğum, nikah, ölüm, təbii artım) aydınlıq gətirmək;
- Miqrasiya və sürgünlərin əhalinin say dinamikasına təsirini öyrənmək;
- Təbii fəlakət və xəstəliklərin əhalinin sayına təsirini aydınlaşdırmaq.

**Tədqiqat metodları.** Tədqiq olunan problemin araşdırılmasında tarixi yanaşma, tənqidi-analitik üsuldan, müqayisəli təhlil, tarixi gerçəkliklərin aydınlaşdırılmasında prosesləri doğuran səbəb və nəticələrin əlaqəsi metodundan istifadə edilmiş, dünya tarix

elminin və Vətən tarixşünaslığının son nailiyyətləri nəzərə alınmışdır. Tədqiqatın gedişində istifadə olunmuş əsas üsul elmi araşdırmalarda geniş yayılmış müqayisəli təhlil metodudur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Bu müddəaları aşağıdakılardan ibarətdir:

- Bir çox tarixçilərin İran, yaxud Persiya kimi təqdim etdiyi Səfəvilər dövləti əslində Azərbaycan dövləti idi. Əsas mərkəzi Azərbaycan, aparıcı qüvvəsi Azərbaycan türkləri idi.
- Azərbaycan Səfəvi imperiyasının mövcud olduğu müddətdə əhalisinin sayı 5-10 milyon arasında dəyişmişdir.
- Səfəvilər imperiyasında əhalinin demoqrafik tərkibinin öyrənilməsi üçün Osmanlı dəftərlərinin tədqiqi müəyyən təsəvvür yaratmağa imkan verir.
- Əhalinin etnik tərkibində demək olar ki, bütün türkman tayfaları təmsil olunub.
- Səfəvilər dövlətinin rəsmi dininin islam dini olması və müsəlmanların sıx yaşadığı əraziləri əhatə etməsi nəzərə alınarsa, imperiyanın dini tərkibində müsəlmanların əksəriyyət təşkil etməsi məlum olur.
- Əhalinin sosial tərkibinin çox böyük hissəsini icarədar kəndlilər təşkil edirdi.
- XVII əsrin əvvəllərində ticarətin inkişafı üçün xristian tacirlərin köçürülməsi XVII əsrin sonlarından başlayaraq Səfəvilər dövlətini böhrana doğru apardı və son nəticədə də bu dövlətin süqutunu tezləşdirən amillərdən biri oldu.
- Səfəvilər dövlətində baş verən epidemiyalar və təbii fəlakətlər nəticəsində əhali sayında nəzərəçarpacaq qədər azalma olsa da, bu Avropa ilə müqayisədə daha aşağı idi.

**Tədqiqatın elmi yeniliyi.** Disertasiya işində qarşıya qoyulan bütün elmi məsələlər araşdırılarkən ilk mənbələrin məlumatları əsas

tutulmuşdur. Səfəvilər dövlətinin əhalisinin öyrənilməsi Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq tədqiqat obyektinə çevrilmişdir və araşdırmanın gedişində aşağıdakı elmi nəticələr əldə olunmuşdur:

- Azərbaycan tarix elmində ilk dəfə olaraq Səfəvilər dövlətinin əhalisi kompleks şəkildə tədqiq edilmişdir;
- Səfəvilər dövlətinin "İran dövləti" kimi təqdim olunması, "əsas etnik qrupların fars adlandırılması" fikrinin yanlış olduğu elmi cəhətdən əsaslandırılmışdır;
- Azərbaycan tarix elmində ilk dəfə olaraq bütün Qızılbaş oymaqları tərkibinə daxil olan obalarla birlikdə ayrıca tədqiq edilmişdir;
- Səfəvi imperiyasının hüdudları çərçivəsində əhalinin dini tərkibi tədqiq edilərək aydınlaşdırılmışdır;
- Əhalinin sosial-silki tərkibi, ayrı-ayrı təbəqələr arasında hüquqi münasibətləri əhatə edən sosial məsələlər araşdırılmışdır;
- Səfəvi imperiyasının idarə edilməsində Qızılbaş-türk tayfaların aparıcı rol oynadığı sübut olunmuşdur;
- Əhalinin miqrasiyası, xüsusilə də 1514-cü il Çaldıran döyüşündən sonra Sultan Səlim tərəfindən Təbrizdən İstanbula köçürülən əhalinin sayının müəyyənləşdirilməsinə cəhd edilmiş və Azərbaycan tarix elmində ilk dəfə olaraq həmin insanların adları və peşələri barədə mühüm məlumat verilmişdir;
- Azərbaycan tarix elmində ilk dəfə olaraq Səfəvilər dövlətinin əhalisinin say dinamikasına təsir edən təbii fəlakətlər və xəstəliklər öyrənilmiş və əldə olunan məlumatlar ümumiləşdirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işinin elmi-nəzəri və təcrübi əhəmiyyəti onunla izah edilə bilər ki, dissertasiyada istifadə olunan faktik materialdan və əldə olunmuş nəticələrdən universitetlərin tarix fakültələrində "Səfəvi dövlətinin əhalisi" mövzusunda ixtisas kurslarının aparılmasında, ümumiləşdirilmiş əsərlərin yazılmasında, tədris və dərs vəsaitlərinin

hazırlanmasında, elmi konfrans və seminarların keçirilməsində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işi AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın tarixi demoqrafiyası" şöbəsinin 6 dekabr 2017-ci il tarixli iclasında müzakirə edilmiş və müdafiəyə buraxılmaq üçün məsləhət görülmüşdür. Dissertasiya işinin əsas məzmununu əhatə edən müddəaları müəllifin elmi məqalələrində, həmçinin AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunda, ölkənin digər elm ocaqlarında və tədris müəssisələrində, habelə ölkə hüdudlarından kənarda təşkil olunmuş elmi konfranslardakı çıxışlarında əks olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunda yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu və həcmi.** Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Dissertasiyaların tərtibi qaydaları"na uyğun şəkildə hazırlanmışdır. Giriş, 3 fəsil və nəticə daxil olmaqla dissertasiyanın ümumi həcmi 249733 işarədən ibarətdir.

Giriş: işarə sayı – 16743, I fəsil: işarə sayı – 94942, II fəsil: işarə sayı – 97101, III fəsil: işarə sayı – 36016, nəticə: işarə sayı – 4931

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılır. Tədqiqatın xronoloji çərçivəsi, öyrənilmə səviyyəsi və mənbə bazası açıqlanır, tədqiqatın məqsəd və vəzifələri müəyyən olunur, elmi yeniliyi əsaslandırılır, metodoloji əsasları, nəzəri və praktiki əhəmiyyəti göstərilir, həmçinin dissertasiyanın aprobasiyası və quruluşu haqqında məlumat verilir.

***"Əhalinin say dinamikası və yerləşməsi"*** adlanan birinci fəsil iki yarımfəsildən ibarətdir. *"Səfəvilər dövlətinin inzibati-ərazi bölgüsü"* adlanan birinci yarımfəsildə ilk öncə Azərbaycan Səfəvi imperiyasının ərazisinin təxminən 1.5 milyon $km^2$-lə 3.6 milyon $km^2$

arasında dəyişdiyi aydınlaşdırılmışdır. Bu yarımfəsildə Səfəvilər dövlətinə dair istər Səfəvi tarixçilərinin, istərsə də Avropa səyyahlarının təqdim etdiyi inzibati-ərazi bölgüsü təhlil edilmiş və əsas bölgü kimi Mirzə Səmianın "Təzkirət əl-müluk" əsərində verdiyi məlumatlar qəbul edilmişdir. "Təzkirət əl-müluk" adlı mənbədə imperiyanın 4 valiliyə və 13 bəylərbəyliyə bölündüyü qeyd edilmişdir. Bu valiliklər nüfuzuna görə Ərəbistan, Luristan, Gürcüstan, Kürdüstandan ibarətdir. 13 bəylərbəyliyə isə Qəndəhar, Şirvan, Herat, Azərbaycan, Çuxur-Səd, Qarabağ və Gəncə, Astrabad, Kuh-Giluyə (Fars), Kirman, Şahicahan Mərvi, Qələmrov-i Əlişəkər ölkəsi (Həmədan), Məşhədi müqəddəs-i müəlla, Darüssəltəney-i (paytaxt) Qəzvin daxildir.[31]

Ümumiyyətlə, XVI-XVII yüzillikdə Səfəvi imperiyasında bəylərbəyliklərin ərazisi sabit qalmamış, ayrı-ayrı inzibati vahidlərin ərazisi dəfələrlə dəyişmiş, şəhər, hətta bütöv bir mahal bir vilayətdən alınıb başqasına verilmişdir. Yaxud da, qərbdə osmanlılarla, şərqdə isə özbəklərlə aparılan müharibələr bəzi ərazilərin itirilməsi, yenidən geri qaytarılması ilə müşayiət olunmuşdur. Bu baxımdan, araşdırılan bütün mənbələrdəki məlumatlardan fərqli olaraq "Təzkirət əl-müluk"də inzibati-ərazi bölgüsünün dəqiqliklə verilməsi Səfəvilər imperiyasının inzibati idarə sisteminin öyrənilməsini daha da asanlaşdırır.

*"Əhalinin say dinamikası və yerləşməsi"* adlanan ikinci yarımfəsildə ilk öncə əhalinin say dinamikası məsələsinə aydınlıq gətirilir. Məlumdur ki, Səfəvilər dövlətində yalnız 1694-cü ildə taxta çıxan Şah I Sultan Hüseynin hakimiyyəti dövründə 3 il müddətinə 1699-cu ildən 1702-ci ilə qədər alban katolikosu Yesai Həsən Cəlalyanın da əsərində[32] şahidlik etdiyi kimi ümumi siyahıyaalınma

---

[31] Minorsky, V.F. Tadhkirat al-muluk. A manual of Safavid Administration (circa 1137/1725). Persian text in Facsimile (B.M. Or. 94-96) / V.F.Minorsky. – London: printed by W. Heffer & Sons, – 1943. – p.163

[32] Yesai, Həsən-Cəlalyan. Alban ölkəsinin qısa tarixi (1702-1722-ci illər) / Erməni dilindən tərcümə edən. T.İ.Ter-Qriqoryan; Ruscadan çevirən. H.Dadıyev, V.Musayev; Ön söz müəllifi Z.M.Bünyadov. – Bakı: İşıq, – 1992. – 50 s.

həyata keçirilmişdi. Təəssüf ki, bu siyahıyaalınma və verilən fərman hələ ki aşkar edilməyib. Səfəvilər dövlətində yaşayan əhalinin tayfalar üzrə sayı barədə ən sistemli məlumatı "Töhfeyi-Şahi" əsərindən əldə etmək mümkün olsa da, verilən rəqəmlərin kifayət qədər böyük olması mənbənin məlumatının səhihliyini şübhə altına alır. Mənbədə verilən məlumatlardan belə nəticə çıxır ki, guya XVIII əsrin əvvəllərində Səfəvilər dövlətində əhali 16.110.000-i (verilən rəqəmlərə görə 16.090.000) köçəri, 28.290.000-i oturaq əhali olmaqla 44.400.000 ailə, yəni 220.000.000 nəfər idi. Lakin, aparılan tədqiqatlar nəticəsində aydın olur ki, XVII-XVIII əsrlərdə əhalinin sayı cəmi 5-10 milyon arası dəyişirdi[33].

Səfəvilər dövlətində əhalinin yerləşməsi isə əsasən oymaq, ellər şəklində idi. Şah I Abbasın dövründən başlayaraq bu ənənənin pozulmasına cəhd edilsə də, bu sahədə olduqca nisbi uğur əldə edilmişdir. Qeyd edək ki, "Osmanlı imparatorluğun'da Oymaq, Aşiret ve Cemaatlar" adlı əsərin müəllifi Cevdet Türkay 15 il ərzində yalnız Osmanlı dəftərləri əsasında 230 oymaq qeydə almışdır.[34] Qeydə alınan bu oymaqların Səfəvilər dövlətinin qızılbaş oymaqları arasında müəyyən paralellər vardır ki, bu ortaq cəhətlər F.Sümer[35],

---

[33] Floor, W., Herzig, E. Iran and the World in the Safavid Age / W.Floor, E.Herzig. – London and New York: I.B.Tauris & Co Ltd, – 2012. – p.33; Lockhart, L. The fall of the Ṣafavī dynasty and the Afghan occupation of Persia / L.Lockhart. – Cambridge: Cambridge University Press, – 1958. – p.10-11; Minorsky, V.F. Tadhkirat al-muluk. A manual of Safavid Administration (circa 1137/1725). Persian text in Facsimile (B.M. Or. 94-96) / V.F.Minorsky. – London: printed by W. Heffer & Sons, – 1943. – p.186; Douglas, E.S. Ateşli silahlar çağında İslam İmparatorlukları: Osmanlılar, Safeviler, Babürlüler / E.S.Douglas. – İstanbul: Ufuk yayınları, – 2013. – s. 186; Newman, A.J. Safavid İran. Rebirth of a Persian Empire / A.J.Newman. – London, New York: I.B. Tauris & Co Ltd, – 2009. – p.6, 242

[34] Türkay, C. Osmanlı imparatorluğun'da Oymak Aşiret ve Cemaatlar / C.Türkay. İstanbul: İşaret Yayınları, – 2012. – 832 s.

[35] Sümer, F. Avşar // İstanbul: Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, – c. 4. – 1991, – s.160-164; Sümer, F. Bayat // İstanbul: Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, – c. 5. – 1992, – s.218-219; Sümer, F. Bayatlar // İstanbul: İstanbul Üniversitesi Edebiyat Fakültesi Türk dili ve Edebiyatı Dergisi, – 1952. 4/4, –

Tufan Gündüz[36], A.S.Bilgili[37] və digər tədqiqatçılar tərəfindən geniş şəkildə tədqiq olunmuşdur. Bu yarımfəsildə qızılbaş adı ilə tanınan oymaqların hər birinin yerləşməsi barədə geniş məlumat verilir. Aparılan tədqiqatın nəticəsində məlum olmuşdur ki, Səfəvilər dövlətində XVI əsrin sonunda təkcə şəhər əhalisinin sayı bütün imperiya üzrə mövcud 229 şəhərdən ən mühüm və ən böyük hesab edilən 14-də cəmi 850.000 ailə, yəni təxminən 4.250.000 nəfər idi.[38] Lakin bu rəqəmlərin dövlətin əhali sayını tam şəkildə əks etdirdiyini qəbul etmək məqbul deyil. Çünki verdiyimiz rəqəmlər xüsusilə ən iri və ən əhəmiyyətli 14 şəhərdəki əhali sayını əks etdirir. Səfəvi imperiyasında bu şəhərlərdən savayı 200-dən çox orta və xırda ölçülü şəhərlərin olmasını da nəzərə alsaq rəqəmin nə qədər qaneedici olmadığını görərik.

Dörd yarımfəsildən ibarət olan ikinci fəsil ***"Əhalinin tərkibi"*** adlanır. *"Demoqrafik tərkib"* adlanan birinci yarımfəsildə Səfəvilər dövlətində ailə, yaş, cins tərkibinin təhlilinə cəhd edilmiş, xüsusilə ailə münasibətlərinə aydınlıq gətirmək üçün əsasən Jan Şardenin, Oruc bəy Bayatın, Kakaş və Tektanderin əsərlərinə [39] istinad

---

s.373-398; Sümer, F. Döğerlere dair // İstanbul: Türkiyat Mecmuası, – 1953, – s.139-158; Sümer, F. Kaçarlar // İstanbul: Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, – c. 24. – 2001, – s.51-53 və b.

[36] Gündüz, T. Anadolu'da Türkmen Aşiretleri. Bozulus türkmenleri 1540-1640 / T.Gündüz. – İstanbul: Yeditepe, – 2015. – 206 s.

[37] Bilgili, A.S. Azerbaycan türkmenleri tarihi // Ankara: Türkler özel sayısı, Orta Çağ, – c. 7. – 2002. – s. 22-43

[38] Россия и Европа глазами Орудж-Бека Баята – Дон Жуана Персидского / перевод с английского, введение у комментарии и указатели О. Эфендиева и А.Фарзалиева. – СПб: Издательство Санкт-Петербургского университета, – 2007. – с.30-33

[39] Какашъ и Тектандеръ. Путешествіе въ Персію черезъ Московію 1602-1603 гг. Книга вторая. Сто семьдесятъ седьмая. Издана подъ завѣдываніемъ Е.В. Барсова. – Москва: Университетская типография, – 1896. – с.37; Россия и Европа глазами Орудж-Бека Баята – Дон Жуана Персидского / перевод с английского, введение у комментарии и указатели О. Эфендиева и А.Фарзалиева. – СПб: Издательство Санкт-Петербургского университета, – 2007. – с.36; Voyages de Ma. Le Chevalier Chardin, En Perse, Et Autres Lieux De

edilmişdir. Bu mənbələrdə öz əksini tapan məlumatlardan məlum olur ki, Səfəvilər dövlətində kəniz, siğə və nigah yolu ilə evlilik mövcud idi və hamısının birgə icrasına icazə verilirdi. Ortabab və varlı ailələlərdə bu evlənmə üsullarından hər birinə rast gəlinirdi. Yoxsul ailələr isə adətən kəbin kəsdirməklə ailə həyatı qururdular. Əgər problemə ailənin sosial statusu və nüfuzu baxımdan yanaşsaq ailəbaşına düşən insanların sayının varlı və ortabab ailələlərdə kifayət qədər yüksək olması qənaətinə gəlmək olar. Bu səbəbdən də əhalinin say dinamikasını təxmini də olsa müəyyənləşdirmək üçün ailəbaşına düşən adamların sayının orta hesabla 5 nəfərdən götürülməsi nisbi xarakter daşıyır.

"*Etnik tərkib*" adlanan ikinci yarımfəsildə qeyd olunur ki, Səfəvilər dövlətinin yaranması ərəfəsində ölkədə ən geniş yayılmış tayfalar türkmanlar idi. 1514-cü ilə qədər hüdudlarını şimalda Dərbənd şəhərindən cənubda Fars körfəzinə, qərbdə Fərat çayından şərqdə Amudərya çayına qədər genişləndirdikcə Səfəvilər dövləti əhalisinin etnik tərkibi daha da mürəkkəbləşdi. Bu yarımfəsildə Səfəvilər dövlətinin tərkibindəki türkman və qeyri-türkman tayfaların hər biri barədə məlumat verilir və bəzi tayfaların etnik kimliyi ilə bağlı məsələyə aydınlıq gətirilir.

Üçüncü yarımfəsildə isə *"Dini tərkib"* araşdırılmışdır. Qeyd edək ki, Səfəvilər dövlətinin dini tərkibi ayrı-ayrı dini icmaların öyrənilməsi baxımdan geniş şəkildə araşdırılıb. Xüsusilə də, Səfəvilər dövlətində yaşayan qeyri-müsəlman əhali – xristian, yəhudi və zərdüşti dini icmaları ilə bağlı ayrı-ayrı tədqiqat əsərləri yazılmışdır. Səfəvilər dövlətinin dini tərkibi ayrı-ayrı dini icmaların öyrənilməsi baxımdan geniş şəkildə araşdırılıb. Xüsusilə də, Səfəvilər dövlətində yaşayan qeyri-müsəlman əhali – xristian, yəhudi və zərdüşti dini icmaları ilə bağlı ayrı-ayrı tədqiqat əsərləri yazılmışdır. Bu yarımfəsildə aydın olur ki, Səfəvilər dövlətinin dini

---

L' orient. Tome second, Contenant le Voyage de Paris à Ispahan. Second partie, Qui comprend le Voyage de Mingrelin à Tauris / J.Chardin. – Amsterdam: Chez Jean Louis de Lorme, – MDCCXI (1711) . – p.261-272;

tərkibi əsasən müsəlmanlardan ibarət idi. İstər müsəlman, istərsə də qeyri-müsəlman əhalinin faiz nisbətini müəyyən etmək mənbələrdəki məlumat yetərsizliyinə görə mümkün deyil. Bu sayı yalnız bəzi bəylərbəyliklərin, xüsusilə də Osmanlıların tərtib etdikləri təhrir dəftərlərinin timsalında ayrı-ayrı vilayətlərdə nəzərdən keçirmək mümkündür. Qeyri-müsəlman əhalinin müsəlmanlaşdırılmasına çalışılsa da, əksər ermənilər və yəhudilər dinlərini dəyişməmişdilər. İmperiyada qeyri-müsəlman əhali içərisində sayları XVI əsrdən XVIII əsrin I yarısına qədər 10 minlə 100 min arasında dəyişən və əsasən mərkəzi şəhərlərdə məskunlaşan yəhudilər, ayrıca olaraq xüsusi məhəllələrdə yaşayıb sayları 100 minlə 10 min arası dəyişən zərdüştilər, ümumi sayları 70 min nəfərə çatan qriqoryan ermənilər, sayları 225 min nəfər olan xristian gürcülər, 40 min nəfər xristian çərkəzlər də var idi. Bu yarımfəsildə Səfəvilər dövlətində yaşayan xristian icmasına daxil olan alban əhali də tədqiq olunmuşdur. Bu istiqamətdə Yesai Həsən Cəlalın, Tadeuş Kruşinskinin verdiyi məlumatlar [40], Roza Eyvazovanın Əfqanıstanla bağlı toponimik əsəri[41] tədqiqata cəlb edilib. Bu yarımfəsildə tədqiq olunan bir başqa məqam 1828-ci il Türkmənçay müqaviləsindən sonra Azərbaycan torpaqlarına köçürülən ermənilərin guya XVII əsrin əvvəllərində Qarabağdan İrana sürgün edilmiş xristian albanlar olması iddiasına verilən cavabdır. Məlum olduğu kimi Şah I Abbasa qarşı üsyan edən Qarabağ xristianları – albanlar Mazandarana sürgün olunmuşdular.[42]

---

[40] Yesai, Həsən-Cəlalyan. Alban ölkəsinin qısa tarixi (1702-1722-ci illər) / Erməni dilindən tərcümə edən. T.İ.Ter-Qriqoryan; Ruscadan çevirən. H.Dadıyev, V.Musayev; Ön söz müəllifi Z.M.Bünyadov. – Bakı: İşıq, – 1992. – s.22; The history of the late Revolutions of Persia: Taken from the memoirs of Father Krusinski, procurator of the Jesuits at İspahan: [in 2 volumes] / T.Krusinski. – London: Printed for J.Pemberton, at the Golden-Buck in Fleet-Street, – vol. 1. – MDCCXXXIII (1733) . – p.137-139

[41] Eyvazova, R. Əfqanıstanda türk mənşəli toponimlər / R.Eyvazova. – Bakı: Elm, – 1995. – s.23

[42] Петрушевский, И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI – начале XIX вв. / И.П.Петрушевский. –

Bu fikir dövrün mənbəsi İsgəndər bəy Münşinin əsərində də öz təsdiqini tapmır.[43] Çar Rusiyası Mazandarandan Şimali Azərbaycan torpaqlarına ümumiyyətlə xristian əhali köçürməmişdir. Digər tərəfdən, bu qeyri-elmi iddianın kiçicik belə elmi əsası olsaydı, bunu qanlı köçürmə siyasətini həyata keçirən Rusiya işğalçıları hamıdan əvvəl və hamıdan daha yaxşı əsaslandırardılar.[44]

Əhalinin dini tərkibində çoxluq təşkil edən müsəlmanlar içərisində etnik baxımdan türk tayfaları üstünlük təşkil etsə də, onlarla bərabər müsəlman olan və türk tayfalarla qarışan kürdlər, şəhərli taciklər, tatlar, irandilli digər etnik qruplar – puştunlar, talışlar, bəluclar, lurlar, semitdilli ərəblər, əfqan tayfaları olan gilzayilər və abdalilər də var idi. Tədqiqatın gedişində həmin tayfalardan olan əhalinin sayı ilə bağlı da müəyyən təsəvvür yaradılmışdır.

Dördüncü yarımfəsil isə *“Sosial tərkib”* adlanır. Dissertasiyada Səfəvi dövlətinin əhalisinin sosial tərkibi dövrün qaynaqlarından istifadə olunmaqla təhlil edilmişdir. Tədqiqat nəticəsində məlum olmuşdur ki, Səfəvi imperiyasında əhali sosial tərkibinə görə şah və hakim nəslin nümayəndələrindən, şəmşir və qələm əhlindən olan əyanlardan, hərbçilərdən, din xadimləri, sənətkar və tacirlərdən, varlı, icarədar, azad icmaçı, qara, qərib, bekar, xoşnişin kimi adlarla tanınan kəndlilərdən təşkil olunmuşdur. Əhalinin sosial tərkibi ilə bağlı aparılan araşdırmalar nəticəsində Səfəvilər dövlətinin əhalisinin əksəriyyətinin icarədar kəndlilər olduğu, sənətkarların sayının XVII əsrin ortalarında təxminən 30 min nəfər təşkil etdiyi məlum olmuşur. Ordunun sayının XVI əsrdə 120 min nəfər, XVII əsrdə 200 min nəfər, XVIII əsrdə isə təxminən 60 min nəfərə çatdığı aydın olur.

---

Ленинград: издательство Ленинградского ордена Ленина университета имени А.А.Жданова, – 1949. – с.253

[43] İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi (Tarix-e aləmara-ye Abbasi). 2 kitabda. II kitab / Fars dilindən çevirən Ş.Fərzəliyev. – Bakı: Şərq-Qərb, – 2014. – s. 1575

[44] İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi / elmi red. Y.M.Mahmudov. – Bakı: Çaşıoğlu, – 2010. – s.385

***“Əhalinin demoqrafik problemləri”*** adlanan üçüncü fəsil iki yarımfəsildən ibarətdir. *“Əhalinin miqrasiyası”* adlanan birinci yarımfəsildə Səfəvilər dövlətində müxtəlif məqsədlərlə həyata keçirilən əhali miqrasiyasına aydınlıq gətirilmişdir. Bu yarımfəsildə əhali miqrasiyaları “müharibənin səbəb olduğu köçlər”, “iqtisadi səbəbdən baş verən köçlər”, “hərbi dayaq yaratmaq və cəzalandırmaq məqsədi ilə edilən köçlər”, “başqa dövlət tərəfindən hərbi dayaq yaratmaq məqsədi ilə reallaşdırılan köçlər” və fərdi miqrasiyalar formasında qruplaşdırılaraq tədqiq olunmuşdur. Səfəvilər dövlətində müharibənin səbəb olduğu köçlərə qərbdə Osmanlı imperiyası ilə aparılan müharibələr daha çox təsir göstərmişdir. Osmanlı imperiyası ilə sərhəddə yerləşən tarixi Azərbaycan torpaqlarında tətbiq olunan yandırılmış torpaq siyasəti həmin ərazidə yaşayan yerli əhalinin imperiyanın digər ərazilərinə köçürülməsinə səbəb olmuşdur. Xüsusilə də 1514-cü il “Təbriz sürgünləri” adı ilə tanınan hadisənin tədqiqinə geniş yer ayrılmışdır. Bu hadisə zamanı Təbrizdən İstanbula köçürülən təxminən 154 nəfər müəyyənləşdirilmişdir ki, onun da 22-i yolda vəfat etmişdir.[45] Şah I Təhmasib, Şah I Abbas tərəfindən həyata keçirilən yandırılmış torpaq siyasəti və nəticələri nəzərdən keçirilmişdir. Məlum olmuşdur ki, həyata keçirilən bu tədbir ölkənin işğalını önləmiş olsa da Səfəvilər dövlətinə də böyük iqtisadi zərər vurmuşdur. Məsələn, Şah I Abbasın Osmanlılara qarşı ənənəvi “yandırılmış torpaq” taktikası nəticəsində Naxçıvan, İrəvan, Culfa və digər şəhərləri ilə çiçəklənən diyar yandırılmış və boş torpaqlara çevrildi.[46]

Tədqiqatın gedişində aydın olmuşdur ki, miqrasiya prosesi yalnız müharibə dövründə deyil, eyni zamanda Səfəvi şahlarının özlərinə iqtisadi və hərbi dayaq yaratmaq məqsədilə də həyata keçirilmişdir. Bu, Azərbaycan Səfəvi dövlətinə iki əsrdən çox mövcudluğunu qoruyub saxlamağa imkan vermişdir.

---

[45] Arslan, H. 16 yy. Osmanlı toplumunda yönetim, nüfus, iskan, göç ve sürgün / H.Arslan. – İstanbul: Kaknüs yayınları, – 2001. – s.325-333

[46] Рахмани, А.А. Азербайджан в конце XVI и в XVII веке (1590-1700 годы) / А.А.Рахмани. – Баку: Элм, – 1981. – с. 69

*"Təbii fəlakətlərin və xəstəliklərin yaratdığı demoqrafik problemlər"* adlanan ikinci yarımfəsildə Səfəvilər dövlətində baş vermiş təbii fəlakətlərin ilk dəfə tədqiqata cəlb edilməsi əhalinin demoqrafik problemlərini daha dərindən öyrənməyə imkan vermişdir. Tədqiqatın gedişində məlum olmuşdur ki, XVI-XVIII əsrin I yarısında Səfəvi imperiyasında baş verən daşqınlar nəticəsində 135 min, quraqlıqdan 98 min, zəlzələdən 636 min nəfər əhali xəsarət almış, bütövlükdə, 744 min nəfər insan həyatını itirmişdir.

Səfəvilər dövlətində baş verən kütləvi xəstəliklərin əhalinin demoqrafik vəziyyətinə təsiri dövrün qaynaqları əsasında araşdırılmışdır. Tədqiqatlar nəticəsində təkcə vəba və taun xəstəliyi nəticəsində ölkədə vəfat edən insanların sayının təxminən 400 min nəfərə yaxın olduğu üzə çıxarılmışdır. Bütövlükdə, bu demoqrafik problemlər Səfəvi imperiyasında əhalinin sayının azalmasına gətirib çıxarmışdır. XVII əsrin ortalarında ölkədə əhalinin sayı 7-8 milyona çatsa da, baş verən kütləvi epidemiyalar və təbii fəlakətlər nəticəsində əhalinin sayı XVIII əsrin 20-ci illərində 3-4 milyon nəfərə qədər azalmışdı.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqatın gedişində əldə olunan əsas elmi-nəzəri qənaətlər sistemləşdirilərək ümumiləşdirilir.

## Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:

1. 1514-cü il Təbriz sürgünləri // Bakı: Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal. General Səməd bəy Mehmandarovun 160 illik yubileyinə həsr olunmuş xüsusi buraxılış, – c. 4. – 2015. – s. 82-89
2. Населения Дербента при государстве Сефевидов// Материалы Международной научной конференции. «Дербент в историческом процессе Кавказа и России», посвященной 2000-летию г. Дербента, – Махачкала: – 19 июня, – 2015, – с. 294-301

3. Səfəvilər dövlətinin inzibati-ərazi bölgüsü // “Kitabi-Dədə Qorqud” və türk dünyası. “Kitabi-Dədə Qorqud”un tərcüməsi və nəşrinin 200 illiyinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları, – Bakı: – 29 dekabr – 2015, – s. 774-782
4. Safeviler döneminde Nahçıvan’ın şehir hayatı // Nahçıvan ve Doğu Anadolu abideleri uluslararası sempozyumu (Dünü, bugünü ve yarını), – Nahçıvan: – 11-12 mayıs – 2016, – s. 334-341
5. Səfəvilər dövlətində əhalinin miqrasiyası // Bakı: Pedaqoji Universitetin xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, – c. 64 (2). – 2016. – s. 177-190
6. Səfəvilər dövlətində əhalinin dini tərkibi // – Bakı: Bakı Universitetinin xəbərləri. Humanitar elmləri seriyası, – 2016. – s. 139-147.
7. Səfəvilər dövlətində əhalinin demoqrafik tərkibi // Астана: Материалы V Международной научно-практической интернет – конференции «Евразийское пространство в мировой цивилизации» посвященная 25-летию Независимости Казахстана, – 2016. – с. 13-18
8. Демографические проблемы в Сефевидском государстве вызванные болезнями // Киев: Гілея: науковий вісник: Збірник наукових праць, – 2016. Вып. 110 (№7), – с. 145-149
9. Səfəvilər dövlətinin Xəzəryanı şəhərlərinin əhalisi // – Bakı: Pedaqoji Universitetin xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, – c. 65(3). – 2017. – s. 100-112.
10. XVI-XVII əsrlərdə Təbrizdə baş verən zəlzələlərin əhali sayına təsiri // Türkiye: Akademik Tarih ve Düşünce Dergisi, c. 7. – 2020, sayı 1. s. 496-512.

Dissertasiyanın müdafiəsi 21 yanvar 2022 il tarixində saat 13⁰⁰-da Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.30 saylı Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Az.1143, Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 20 dekabr 2021 ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: ____________

Kağızın formatı: A5

Həcm: 40020

Tiraj: 100